*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 7, 2025*
*Səh. 247-253*

https://doi.org/10.62837/2025.7.247

**NURANƏ ƏSƏDOVA RÖVŞƏN QIZI**
***Azərbaycan Universiteti***
***Nurana.asadova@au.edu.az***

# KEÇMİŞ SSRİ-nin TÜRKDİLLİ RESPUBLİKALARINDA İKT VƏ İNGİLİS DİLİNİN İNKİŞAFI

## XÜLASƏ

İKT-nin sürətlə inkişafı qlobal dünyada məlumat mübadiləsinin asanlaşması, kommunikasiya üsullarının təkmilləşməsi və internetin geniş yayılması ilə əlaqədar olaraq, ingilis dilinin istifadəsi bu respublikalarda getdikcə artmışdır. İngilis dili internet və texnologiyanın dominant dili olaraq, müxtəlif sahələrdə, xüsusilə təhsil, biznes və turizm kimi sektorlarda geniş yayılmağa başlamışdır. Bu dilin tədrisi, əsasən, onlayn kurslar, virtual tədris platformaları, sosial media və digər rəqəmsal vasitələr üzərindən həyata keçirilir.

Keçmiş SSRİ-nin türkdilli respublikalarında informasiya-kommunikasiya texnologiyalarının (İKT) inkişafı və ingilis dilinin yayılması son onilliklərdə qlobal inteqrasiya proseslərinin mühüm istiqamətlərindən birinə çevrilmişdir. Sovet dövründə rus dili regionun əsas ünsiyyət vasitəsi olduğu halda, müstəqillikdən sonra türkdilli respublikalar sürətlə beynəlxalq əməkdaşlığa yönəlmiş və ingilis dili xarici siyasət, təhsil, elm və biznes sferalarında əsas kommunikasiya vasitəsi kimi ön plana çıxmışdır. Bu proses İKT-nin geniş tətbiqi ilə paralel şəkildə inkişaf edərək yeni təhsil modellərinin, elektron resursların və rəqəmsal mədəniyyətin formalaşmasına təkan vermişdir. Xüsusilə Azərbaycan, Qazaxıstan və Özbəkistan kimi respublikalarda rəqəmsallaşma siyasəti və xarici dil tədrisi üzrə islahatlar milli inkişaf strategiyalarının ayrılmaz hissəsinə çevrilmişdir. Bu məqalədə İKT və ingilis dilinin qarşılıqlı təsiri, onların gənc nəslin qlobal əmək bazarına inteqrasiyasındakı rolu, həmçinin milli kimlik və dil siyasəti kontekstində yaratdığı çağırışlar təhlil olunur.

**Açar sözlər:** Keçmiş SSRİ, türkdilli respublikalar, informasiya-kommunikasiya texnologiyaları (İKT), ingilis dili, dil siyasəti.

İKT-nin inkişafı, xüsusilə internetin, sosial medianın və texnoloji cihazların istifadəsinin artması, bu ölkələrdə ingilis dilinin tədrisini asanlaşdırmışdır. Eyni zamanda, bu texnologiyalar, dil öyrənmək istəyən şəxslərə dünyanın müxtəlif yerlərindən mənbələrə asan çıxış imkanı yaratmışdır. İnternetin və sosial şəbəkələrin, xüsusən də Youtube, Facebook, Instagram və LinkedIn kimi platformaların genişlənməsi, bu ölkələrdə ingilis dilinə olan tələbin artmasına səbəb olmuşdur.

Bundan əlavə, İKT-nin təhsil sahəsindəki tətbiqləri, ölkələrdə dil öyrənmə metodlarını inkişaf etdirmiş, ingilis dilinin daha əlçatan və istifadəyə yararlı hala

gəlməsini təmin etmişdir. Onlayn təhsil platformaları və virtual dərslər, ənənəvi təhsil metodlarına əlavə olaraq, tələbələrə istənilən vaxt və məkanda dil öyrənmək imkanı təqdim etmişdir.

Texniki amillər, xüsusilə müasir texnologiyaların inkişafı, qloballaşma şəraitində ingilis dilinin yayılmasına əhəmiyyətli dərəcədə təsir edən amillərdən biridir. "İngilis dili yalnız biznesin deyil, eyni zamanda internetin də dilidir." [5, s. 1902].

Bəzi hallarda internet istifadəçiləri öz ana dillərində mövcud olan sistemlərdən ingilis dilində olan sistemə keçərkən çətinliklərlə qarşılaşırlar. Bunun səbəbi bir tərəfdən ingilis dilindəki sistemə alışılmış olmasından irəli gələrsə, digər tərəfdən tərcümə sistemlərinin orijinal olmaması və kommunikasiya terminlərinin yerli dilə uyğun olmamasıdır. Məsələn, "to click" feilinin Azərbaycan dilində müxtəlif variantları mövcuddur: "tıqqıldatmaq","tıqlamaq","klik etmək", "klikləmək", "şıqqıldatmaq". Mədəniyyət amili də qloballaşmaya öz təsirini göstərir, xüsusən də qərb mədəniyyətinin ingilis dilinin yayılmasında böyük rol oynadığını vurğulamaq lazımdır. Bu sahə musiqini, rəssamlığı, sənətkarlığı, idmanı, milli mətbəxi və digər sahələri əhatə edir.

Texnologiyanın sürətli inkişafı və yenilənməsi qloballaşma prosesinin əsas hərəkətverici qüvvələrindən biri olmaqla yanaşı, qlobal ünsiyyət dilinin yayılmasına da mühüm təsir göstərir. İnformasiya texnologiyaları, rəqəmsal qurğular, internet və digər müasir innovasiyalar qloballaşma tendensiyalarını gücləndirir və bu prosesdə ingilis dilinin rolunu daha da artırır. Kompüter sistemlərinin interfeysləri, müxtəlif cihazların istifadə qaydaları və texniki problemlərin həlli, istehsal olunduqları ölkədən asılı olmayaraq, əsasən ingilis dilində təqdim olunur. Bu hallar texnologiyanın ingilis dilinin genişlənməsində oynadığı əhəmiyyətli rolu nümayiş etdirir [1, s.14].

Özbəkistan müstəqillikdən sonra İKT sahəsində ciddi irəliləyişlər əldə edib və bu, ingilis dilinin yayılmasına müsbət təsir göstərib. Özbəkistan hökuməti, təhsil sistemində İKT-nin tətbiqini artırmaqla yanaşı, onlayn təhsil platformalarına da xüsusi diqqət yetirir. Dövlət, müxtəlif beynəlxalq İKT layihələrində iştirak edərək, gənclərə ingilis dilində təhsil və təcrübə imkanları təqdim edir. Özbəkistanda, xüsusilə müasir texnologiyaların istifadəsi ilə, tələbələrə ingilis dilini öyrənmək və bu sahədə ixtisaslaşmaq üçün geniş imkanlar yaranmışdır. Eyni zamanda, internetin və sosial şəbəkələrin inkişafı ilə, Özbək gəncləri ingilis dilini daha çox öyrənməyə başlamışlar, çünki sosial media platformaları və online tədris resursları onlara istədikləri vaxt ingilis dilində məlumat əldə etməyə imkan verir.

Azərbaycanın İKT sektorundakı inkişafı, ingilis dilinin tədrisi və istifadəsini genişləndirməkdə mühüm rol oynamışdır. Azərbaycan hökuməti, “Elektron Azərbaycan” proqramı çərçivəsində, internetin və İKT-nin inkişafını ön planda tutaraq, gənclərə ingilis dilindəki məlumatları daha rahat əldə etmələrini təmin etmişdir. Müxtəlif onlayn təhsil proqramları və kurslar vasitəsilə, ölkədə ingilis

dilinin tədrisi genişlənmiş və bu dilin istifadəsi artmışdır. Eyni zamanda, sosial şəbəkələr və onlayn platformalar, gənclərə yalnız dil öyrənmə imkanı yaratmaqla qalmır, həm də qlobal dünyada iştirak etməyə, digər mədəniyyətlər və dillərlə tanış olmağa imkan verir. Azərbaycanlı gənclərin İngilis dilində yazılmış məqalələr, forumlar və videolar vasitəsilə biliklərini artırması da bu amil ilə sıx bağlıdır.

Qazaxıstan son illərdə İKT sahəsindəki inkişafı ilə ingilis dilinin yayılmasına mühüm təsir göstərmişdir. Qazaxıstanda, xüsusilə internetin geniş yayılması və sosial şəbəkələrin populyarlaşması ilə, ingilis dili daha çox gənclər arasında istifadə edilməyə başlanmışdır. Dövlət, təhsil sistemində rəqəmsal texnologiyaların tətbiqini sürətləndirərək, tələbələrə onlayn kurslar, mobil tətbiqlər və digər texnoloji vasitələrlə ingilis dili öyrənmək imkanı yaratmışdır. Qazaxıstanın beynəlxalq təşkilatlarla əlaqələrinin artması, həmçinin bu ölkədə ingilis dilindəki məlumatların və resursların daha çox istifadəsinə səbəb olub. Eyni zamanda, ölkədəki onlayn təhsil platformaları və İKT layihələri, gənclərin və tələbələrin dil bacarıqlarını inkişaf etdirməkdə mühüm rol oynamışdır.

Türkmənistan, digər ölkələrə nisbətən İKT sahəsində daha sərt dövlət siyasəti tətbiq etmiş olsa da, bu sahədəki inkişaf, ingilis dilinin yayılmasına öz təsirini göstərmişdir. Türkmənistanın internetə çıxışı və sosial media istifadəsi, son illərdə artmağa başlamışdır. Dövlət, təhsil sahəsində İKT-dən istifadəni təşviq etməyə çalışsa da, hələ də onlayn tədris və dil öyrənmə sahəsində bir çox çətinliklər mövcuddur. Buna baxmayaraq, gənclər arasında ingilis dilinə olan maraq, əsasən, beynəlxalq mənbələr və rəqəmsal platformalar vasitəsilə artır. Türkmən gəncləri, internetdəki onlayn təhsil resursları və virtual tədris proqramları ilə ingilis dili biliklərini inkişaf etdirməyə çalışırlar.

Qırğızıstan, İKT sahəsindəki inkişafla ingilis dilinin tədrisində mühüm irəliləyişlər əldə etmişdir. Bu ölkədə gənclər arasında ingilis dili biliklərini inkişaf etdirmək üçün onlayn kurslar, rəqəmsal platformalar və mobil tətbiqlər geniş istifadə olunur. Qırğızıstanın təhsil sistemi, İKT-nin tətbiqinə önəm verərək, tələbələrə ingilis dilində tədris edilən məzmunlara çıxış imkanı yaratmışdır. Qırğızıstanın bəzi təhsil müəssisələri, onlayn tədris vasitəsilə gənclərə ingilis dili öyrətmək üçün beynəlxalq təhsil platformaları ilə əməkdaşlıq edir. Həmçinin, bu ölkədə ingilis dilinin internetdə geniş yayılması və sosial şəbəkələrdə istifadəsi, dil öyrənməyə marağı artırmışdır.

Rəqəmsal texnologiyaların inkişafı, ingilis dilinə olan tələbin artmasına və bu dilin müxtəlif sahələrdə daha geniş yayılmasına səbəb olmuşdur. Onlayn tədris, mobil tətbiqlər və sosial media platformaları vasitəsilə ingilis dili öyrənmək imkanı, gənclərə və tələbələrə qlobal dünyaya inteqrasiya olmaq üçün geniş imkanlar yaratmışdır. İKT-nin bu sahədəki rolu, gələcəkdə daha da əhəmiyyətli olacaq və ingilis dilinin bu ölkələrdə daha da geniş yayılmasına şərait yaradacaqdır.

Azərbaycanın gəncləri üçün sosial media və onlayn resurslar, ingilis dilini öyrənmək və inkişaf etdirmək üçün böyük əhəmiyyət kəsb edir. Xüsusilə, YouTube,

Telegram, Facebook və Instagram kimi sosial şəbəkələr, gənclərə ingilis dilində təlimlər və vebinarlar təqdim edir. Bu platformalar vasitəsilə, tələbələr ingilis dilindəki mühazirələr və dərs videolarını izləyərək dil biliklərini inkişaf etdirə bilirlər. Azərbaycan universitetləri və onlayn təhsil mərkəzləri də öz tədris proqramlarını internetdə yayımlayır və gənclərin ingilis dili bacarıqlarını artırmaq üçün müxtəlif resurslar təklif edir. "Azərbaycan Dili və Ədəbiyyatı" və "AzTU Online" kimi platformalar, tələbələrə həm yerli, həm də beynəlxalq ingilis dili məzmunlarına daxil olmağa imkan verir. Sosial media vasitəsilə, gənclər yalnız dil öyrənməklə kifayətlənməyib, həm də digər mədəniyyətlərlə tanış olmaq imkanı əldə edirlər. Beləliklə, internetin və sosial şəbəkələrin istifadəsi, ingilis dilinin daha geniş yayılmasına və gənclərin dil bacarıqlarının inkişafına müsbət təsir göstərir. [4]

Qazaxıstanda sosial media və onlayn resurslar ingilis dilinin tədrisində böyük əhəmiyyətə malikdir. Xüsusilə, sosial şəbəkələr, gənclərin ingilis dili bacarıqlarını inkişaf etdirmək üçün geniş imkanlar yaradır. YouTube, Instagram və Facebook kimi platformalar vasitəsilə, Qazaxıstanın gəncləri ingilis dilində müxtəlif vebinarlar, təlimlər və dərs videoları ilə tanış olur. Bununla yanaşı, "BilimLand" kimi yerli təhsil platformaları da, ingilis dili dərsləri və mühazirələri təklif edir. Bu platformalar, tələbələrə interaktiv dərsliklər və video təlimlər təqdim edərək, onların dil bacarıqlarını artırır. Qazaxıstanda, sosial media vasitəsilə beynəlxalq məzmunla tanış olmaq, gənclərin dil biliyini inkişaf etdirir və dünya mədəniyyətləri haqqında məlumat əldə etmələrinə imkan verir. Bu təcrübələr, gənclərin ingilis dilini gündəlik həyatlarında daha çox tətbiq etmələrinə şərait yaradır. Onlayn resursların və sosial şəbəkələrin təhsil sahəsində istifadəsi, ingilis dilinin tədrisinin daha geniş yayıldığı və gənclər arasında marağın artırıldığı bir mühit yaradır [3, s.1].

Türkmənistan hələ də informasiya kommunikasiya texnologiyaları və sosial media vasitəsilə ingilis dilinin tədrisində irəliləyişlər əldə etməyə çalışır. Lakin, son illərdə internetin və sosial şəbəkələrin istifadəsi artmağa başlayıb və bu da gənclərə ingilis dilini öyrənmək üçün əlavə imkanlar təqdim edir. YouTube və Facebook kimi sosial media platformaları, gənclərə ingilis dili tədrisi ilə bağlı mühazirələr, dərsliklər və təlimlər təqdim edir. Türkmənistanda onlayn tədris resursları hələ də inkişaf etmə mərhələsindədir, lakin bəzi universitetlər və təhsil ocaqları, sosial media vasitəsilə ingilis dili kursları və onlayn dərslər təqdim etməyə başlayıblar. Bununla yanaşı, sosial media platformalarında ingilis dilindəki mədəniyyət məzmunu və mühazirələr, gənclərə dünya mədəniyyətləri ilə tanış olmaq və ingilis dilini gündəlik həyatlarında daha çox tətbiq etmək imkanı verir. Türkmənistanda internetin inkişafı ilə, gələcəkdə ingilis dili tədrisinin genişlənməsi və sosial media platformalarının bu sahədə daha da böyük rol oynaması gözlənilir [6, s.21].

Qırğızıstanda sosial media və onlayn resurslar ingilis dilinin tədrisində mühüm təsirə malikdir. Sosial şəbəkələr və internet platformaları, gənclərə ingilis dilini öyrənmək üçün müxtəlif resurslar təqdim edir. YouTube, Instagram və

Telegram kimi platformalarda ingilis dilindəki dərsliklər, mühazirələr və təlimlər gənclərin dil bacarıqlarını artırmağa kömək edir. Qırğızıstanın təhsil müəssisələri də, internet vasitəsilə ingilis dili kursları və interaktiv dərs materialları təqdim edir. Eyni zamanda, Qırğızıstanda onlayn tədris platformaları, tələbələrə ingilis dilində olan beynəlxalq məzmunu təqdim edərək, onların dünya mədəniyyətləri ilə tanış olmasına şərait yaradır. Sosial media və internet vasitəsilə, gənclər yalnız dil öyrənməklə kifayətlənməyib, həm də mədəniyyətlərarası təcrübə qazanarlar. Bu imkanlar, gənclərin ingilis dilini daha fəal və effektiv şəkildə öyrənmələrinə şərait yaradır. Onlayn tədris və sosial media resurslarının istifadəsi, Qırğızıstanda ingilis dilinin tədrisinə olan marağı artırır və gənclərə yeni təhsil imkanları təqdim edir [2, s.10].

Özbəkistan, Azərbaycan, Qazaxıstan, Türkmənistan və Qırğızıstan kimi Mərkəzi Asiya ölkələrində İKT-nin ingilis dilinin yayılmasına təsiri hər ötən gün daha da artmaqdadır. Dövlətlər, təhsil sahəsində həyata keçirdikləri islahatlarla, gənclərə müasir texnologiyalar vasitəsilə ingilis dili öyrənmək imkanı təqdim edir. Onlayn təhsil platformalarının genişlənməsi və rəqəmsal resursların artması, ingilis dilinin tədrisində mühüm rol oynayır. Özbəkistan və Qazaxıstan kimi ölkələr, dövlət sərmayələri ilə gənclərə beynəlxalq təhsil və iş imkanları qazandırır. Azərbaycanın İKT infrastrukturu ilə ingilis dili tədrisi daha geniş yayımlanmışdır. Türkmənistan və Qırğızıstanda isə hələ inkişaf mərhələsində olsa da, İKT-nin təhsildə tətbiqi böyük potensiala malikdir. Sosial media və onlayn resurslar, gənclərin ingilis dilində məlumat əldə etmələrini və dil bacarıqlarını artırmalarını təmin edir. Bu ölkələrdə gənclər, yalnız ingilis dili öyrənmək deyil, həm də qlobal mədəniyyətlə tanış olmaq imkanları əldə edirlər. Gələcəkdə, bu inkişaflar ingilis dilinin daha da populyarlaşmasına və beynəlxalq əməkdaşlığın artmasına səbəb olacaqdır. Təhsilin rəqəmsallaşması, gənclərin dünya iqtisadiyyatına inteqrasiyasını sürətləndirəcək. Həmçinin, gənclərin ingilis dili bacarıqlarının güclənməsi, onların beynəlxalq səviyyədə iş imkanlarını genişləndirəcək. Dövlətlər bu sahədə daha da irəliləyiş əldə etmək üçün İKT-nin tətbiqini artırmağa davam edəcəklər. Bu tədbirlər, təhsil və İKT sahələrinin inkişafını birgə həyata keçirərək, gələcəkdə daha böyük uğurlar əldə etməyə imkan verəcək. Bu inkişaflar, həm də ölkələrin dünya iqtisadiyyatına daha sıx inteqrasiyasına gətirib çıxaracaqdır. Gələcəkdə ingilis dili, bu ölkələrin gəncləri üçün qlobal kommunikasiya və əmək bazarında əvəzsiz bir vasitəyə çevriləcəkdir.

## ƏDƏBİYYAT

1. Aslanova R. Qloballaşma və mədəni müxtəliflik. Bakı: “Nurlan”, 2004, 378 s.
2. Перехвальская Е.В. Языковые контакты и программический код // Лингвистические исследования. Социальное и системное на различных уровнях языка. М., 1986, с. 172-176
3. Тер-Минасова С.Г. Язык и межкультурная коммуникация., 2000, 174 с.

4. Abbasova M. The Impact of Social Networks on the Students' English Language in Azerbaijan. : International Multidisciplinary Scientific Conferences on Social Sciences and Arts At: Albena, Bulgaria, Volume: 3, 2016,
5. Flammia, M., Saunders, C. Language as power on the internet // Journal of the American society for information science and technology, – 2017. 58(12), – p. 1902.
6. Yazov B., Ki-Sang Song. Exploring the Status of ICT in Education in Turkmenistan for Achieving the Education 2030 Agenda, Asia-Pacific Journal of Cooperative Education, 2020, 16(1):21-34

## РАЗВИТИЕ ИКТ И АНГЛИЙСКОГО ЯЗЫКА В ТЮРКОЯЗЫЧНЫХ РЕСПУБЛИКАХ БЫВШЕГО СССР

### Резюме

Благодаря стремительному развитию ИКТ, простоте обмена информацией в глобальном мире, совершенствованию средств коммуникации и широкому распространению Интернета, использование английского языка в этих странах постепенно возросло. Английский язык, как доминирующий язык Интернета и технологий, начал широко распространяться в различных сферах, особенно в таких секторах, как образование, бизнес и туризм. Обучение этому языку осуществляется в основном с помощью онлайн-курсов, виртуальных обучающих платформ, социальных сетей и других цифровых инструментов.

Развитие информационно-коммуникационных технологий (ИКТ) и распространение английского языка в тюркоязычных республиках бывшего СССР стали одним из важных направлений глобальных интеграционных процессов в последние десятилетия. Если в советское время русский язык был основным средством общения в регионе, то после обретения независимости тюркоязычные республики быстро сосредоточились на международном сотрудничестве, и английский язык вышел на первый план в качестве основного средства общения в сферах внешней политики, образования, науки и бизнеса. Этот процесс развивался параллельно с широким распространением ИКТ, что привело к формированию новых образовательных моделей, электронных ресурсов и цифровой культуры. В таких странах, как Азербайджан, Казахстан и Узбекистан, политика цифровизации и реформы в области преподавания иностранных языков стали неотъемлемой частью национальных стратегий развития. В данной статье анализируется взаимодействие ИКТ и английского языка, их роль в интеграции молодого поколения в глобальный рынок труда, а также проблемы, которые они создают в контексте национальной идентичности и языковой политики.

**Ключевые слова:** бывший СССР, тюркоязычные республики, информационно-коммуникационные технологии (ИКТ), английский язык, языковая политика.

**NURANA ASADOVA**

**DEVELOPMENT OF ICT AND ENGLISH IN THE TURKIC-SPEAKING REPUBLICS OF THE FORMER USSR**

**Summary**

Due to the rapid development of ICT, the ease of information exchange in the global world, the improvement of communication methods and the widespread use of the Internet, the use of English has gradually increased in these countries. English, as the dominant language of the Internet and technology, has begun to spread widely in various fields, especially in sectors such as education, business and tourism. Teaching this language is mainly carried out through online courses, virtual learning platforms, social media and other digital tools.

The development of information and communication technologies (ICT) and the spread of English in the Turkic-speaking republics of the former USSR have become one of the important directions of global integration processes in recent decades. While the Russian language was the main means of communication in the region during the Soviet era, after independence, the Turkic-speaking republics have rapidly focused on international cooperation and English has come to the fore as the main means of communication in the spheres of foreign policy, education, science and business. This process has developed in parallel with the widespread use of ICT, giving rise to the formation of new educational models, electronic resources and digital culture. In countries such as Azerbaijan, Kazakhstan and Uzbekistan in particular, digitalization policies and reforms in foreign language teaching have become an integral part of national development strategies. This article analyzes the interaction of ICT and English, their role in the integration of the younger generation into the global labor market, as well as the challenges they pose in the context of national identity and language policy.

**Keywords:** Former USSR, Turkic-speaking republics, information and communication technologies (ICT), English, language policy.

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Züleyxa Bağırzadə**